AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI - 80

# Azərbaycanlı alim Nəsirəddin Tusi: elmin triumfatoru

**Hər bir xalqın tarixində onun istedadlı nümayəndələrinin yaradıcı qüvvələrinin daha parlaq və dolğun reallaşdığı dövrlər olur. Azərbaycanda belə bir dövr XIII-XIV əsrlərə təsadüf edir. Bu dövrdə ölkədə sənətkarlıq və ticarət sürətlə inkişaf etmiş, məscidlər, mədrəsələr, körpülər, karvansaralar kimi möhtəşəm memarlıq abidələri inşa edilmişdir. Mədrəsələrdə ilahiyyatla yanaşı, dünyəvi elmlərin də tədrisinə xüsusi önəm verilmiş, zəngin kitabxanalar təşkil olunmuşdur. Bu dövrlər həm də riyaziyyat, astronomiya, tibb, məntiq, fəlsəfə, hüquqşünaslıq və digər elm sahələrində əldə olunan mühüm nailiyyətlərlə səciyyələnir.**



Beləliklə, Şərq elmi təfəkkürü tarixində XIII-XIV əsrlər yüksək intellektual potensial dövrü kimi yadda qalır. Bu dövrün elmi-mədəni irsinin, eləcə də ayrı-ayrı Azərbaycan alimlərinin yaradıcılıqlarının tədqiq edilməsi göstərir ki, həmin mərhələdə Azərbaycan elmi Şərq intibahının mühüm daşıyıcısı kimi formalaşmış və inkişaf etmişdir. Bu baxımdan, elmi irsi Yaxın və Orta Şərq, həmçinin Qərbi Avropanın bir çox alimləri üzərində mühüm təsir göstərmiş orta əsr görkəmli Azərbaycan alimi Nəsirəddin Tusinin yaradıcılığının hərtərəfli öyrənilməsi xüsusi elmi maraq doğurur.

Elxanilər dövrünün (Hülakü xan (1256-1265) və Abaqa xan (1265-1282)) görkəmli Azərbaycan alimi Əbu Cəfər Nəsirəddin Məhəmməd ibn Məhəmməd ibn əl-Həsən Tusi (18 fevral 1201, Tus, Xorasan - 26 iyun 1274, Bağdad) Azərbaycan elminin inkişafına əvəzsiz töhfələr vermişdir. Nəsirəddin Tusi hələ gənc yaşlarında elmə böyük maraq göstərmiş, onu əvvəlcə öz valideynlərindən, sonra isə dövrünün tanınmış alimlərindən öyrənmişdir.

Ensiklopedik biliyə malik olduğundan onun yaradıcılığı o dövrdə mövcud olan elmin demək olar ki, bütün sahələrini əhatə edə bilmişdir. Tusi həm də polilinqvistik bacarıqları ilə səciyyələnmişdir. O, ərəb, fars, türk və yunan dillərini mükəmməl bilmiş və bu dil bilikləri ona ilkin mənbələri orijinal dildə oxumaq və təhlil etmək imkanı vermişdir. Tusinin zəngin elmi irsi təqribən 200-ə yaxın əsəri əhatə edir. Bu irsə onun risalə və traktatlarla yanaşı, müxtəlif elmi şərhləri, dövrün digər alimləri ilə yazışmaları, həmçinin ərəb, fars, türk və yunan dillərinə etdiyi tərcümələr daxildir. Bu şərhlər sırasında o, Evklid, Arximed, Avtolik, Feodosi, Menelay, Apolloni, Aristarx, Hipsikl və Ptolemeyin əsərlərini də təhlil etmişdir.

Riyaziyyat, astronomiya, dini elmlərə və İslam hüququna, məntiqə və fəlsəfəyə yiyələnəndə heç 20 yaşı da yox idi. Artıq yetkin yaşda olan Tusi təhsilini davam etdirmək üçün Nişapura köçür. Çingiz xanın ordusu Nişapura yaxınlaşanda, monqolların irəliləməsindən müdafiə olunmaq üçün Tusi ismaililərin inşa etdikləri qalalar silsiləsində olan yaxınlıqdakı İsmaili qalasına, oradan Ələmuta köçdü və Hülakü ordusu gələnə qədər iyirmi ildən çox orada yaşadı.

Nəsirəddin Tusi İsmaililərlə birgə yaşadığı müddətdə müəyyən çətinliklərlə üzləşmiş, lakin buna baxmayaraq, elmin müxtəlif sahələrində tədqiqatlar aparmağa davam etmiş və sonralar dünya elminin inkişafına əvəzsiz töhfələr vermişdir.

Alimlər qeyd edirlər ki, N.Tusiyə hamı böyük rəğbət bəsləmiş və bunun sayəsində İsmaili hökmdarı Tusi üçün dağın başında rəsədxana tikdirmişdir. Bu rəsədxanada astronomik cihazlar mövcud idi. 1990-cı illərdə Ələmutda qazıntı aparan iranlı arxeoloqlar bu tikilinin yanmış qalıqlarını aşkar etdilər.

Nəsirəddin Tusi 1256-cı ildə Ələmutun tutulmasından sonra Hülakü xanın sirdaşı və şəxsi məsləhətçisi olmuşdur. Nəsirəddin Tusi əvvəlcədən İsmaili dövlətinin süquta uğradığını görərək son hökmdarları Xurşah Rüknəddin ibn Məhəmmədə monqollara qarşı çıxmağın mənasız olduğunu sübut etmiş və onu Hülakü xana təslim olmağa razı salmışdı. Hülakü xan Tusinin bu uzaqgörənliyini qiymətləndirdi və onu mükafatlandırdı. Nəsirəddinin ən böyük mükafatı Bağdad kitabxanalarında saxlanılan çox sayda əlyazmaların məhv olmaqdan xilas olması və Marağa rəsədxanasının tikilməsi idi. Tikinti üçün Marağanın şimal-qərbində yerləşən və sonradan "Rəsəd dağı" kimi tanınan yüksəklik seçilmiş, həmin təpənin yerini şəxsən Nəsirəddin Tusi müəyyən etmişdir. O, bu rəsədxananın tikintisi üçün zəruri olan bütün vəsaiti Hülakü xandan almağa nail olmuşdur. Beləliklə, Tusi 1259-cu ildə Marağa Rəsədxanasının tikintisinə başlamış və 1262-ci ildə tamamlamışdır.

Eyni zamanda Marağa Rəsədxanasının nəzdində kitabxana fəaliyyət göstərirdi və Orada ərəb, fars və süryani dillərində elmin müxtəlif sahələrinə aid 400 min cildlik əlyazma mövcud idi. Qeyd etmək lazımdır ki, Tusi kitab toplamaq üçün müxtəlif şəhərlərə adamlar göndərir və beləliklə, Bağdad, Dəməşq, Mosul, Xorasan və digər şəhərlərdən buraya kitablar gətirilirdi.

Marağa Rəsədxanası öz dövrü üçün ən müasir və yüksək keyfiyyətli astronomik alətlərlə təchiz olunmuşdur. Mənbələrin məlumatına əsasən, İsmaili qalasından ələ keçirilmiş sərvətlər arasında yer alan astronomik avadanlıqlar Marağaya gətirilmişdir. Marağa Rəsədxanası həm də elmi-tədris müəssisəsi kimi fəaliyyət göstərmişdir. Burada müxtəlif ölkələrdən gələn görkəmli alimlər çalışırdı və onların sayı ümumilikdə 100 nəfərdən çox idi. Xacə Nəsirəddin Tusinin rəhbərliyi ilə çalışan alimlər elmi təcrübə qazanaraq bilik səviyyələrini artırırdılar. Rəsədxanada çalışan hər bir mütəxəssis vətənə döndükdən sonra təcrübəli alim kimi qarşılanır, müstəqil elmi fəaliyyətə başlayırdı.

Nəsirəddin Tusi ömrünün sonunadək bu rəsədxananın həm elmi, həm də inzibati işlərinə şəxsən rəhbərlik etmişdir. Hicri təqvimi ilə 672-ci ildə Nəsirəddin Tusi dostları və müəllimləri ilə Bağdada gedir. Həmin ildə o, xəstələnir və Bağdadda vəfat edir. Həyatının son günlərini yaşadığını hiss edən Nəsirəddin Tusi vəsiyyətində yazır: "Məni İmam Kazimin Müqəddəs məzarı yanında dəfn edin".

Tədqiqatlara əsasən, deyə bilərik ki, onun sələfləri və yaxın nəsli Naxçıvan, Ordubad, Dizmar və Marağa bölgələrində yaşamışdır. Xacə Nəsirəddin Tusinin vəfatından sonra onun nəsli bu günə qədər Naxçıvanda və Ordubadda yaşayır.

Haqlı olaraq qeyd edilir ki, orta əsr Şərq elminin dahisi adlandırılan Azərbaycanın böyük oğlu Nəsirəddin Tusi bəşəriyyətin bütün elmi irsinə çox böyük töhfələr vermişdir. Nəsirəddin Tusinin əlyazmaları yerli və dünya şərqşünaslıq elminin qızıl fonduna daxil edilmişdir.

Nəticədə qeyd etmək istərdim ki, Nəsirəddin Tusinin həyat və fəaliyyətinin ən mühüm nailiyyətləri bunlardır: Mədəni irsin qorunub saxlanılması, qiymətli elmi kitabların yazılması, Monqol istilası dövründə Ələmutdan və Bağdad kitab xəzinəsindən nadir əlyazmaların mühafizəsi, Marağa rəsədxanasının yaradılması, Marağa rəsədxanasının nəzdində kitabxananın yaranması, çoxsaylı alimlərin həyatını monqolların əlindən xilas etmək, gənc alimləri yetişdirmək.

**Məryəm SEYİDBƏYLİ**
**AMEA akad. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun şöbə müdiri, tarix elmləri doktoru, professor**